**M. H. Əhmədovun 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda kitabxana işi sahəsində səmərəli fəaliyyətinə görə Mayıl Hilal oğlu Əhmədov 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 oktyabr 2019-cu il.**



**TƏBRİK EDİRİK!**

**KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA JURNALININ REDAKSİYA HEYƏTİ MAYIL ƏHMƏDOVU 60 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ ÜRƏKDƏN TƏBRİK EDİR.**

## MAYIL ƏHMƏDOV-60

2019-cu oktyabr ayının 17-də, respublikada dövlət icra orqanlarının kitabxana-biblioqrafik və informasiya təminatının inkişaf etdirilməsi sahəsində xüsusi xidmətləri olan tanınmış mütəxəssis, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının direktoru Mayıl Əhmədovun 60 yaşı tamam olmuşdur. O, 1959-cu ildə Goranboy rayonunun Xanqərvənd kəndində anadan olmuşdur. Mayıl Əhmədov orta məktəbi əla qiymətlərlə bitirərək 1983-cü ildə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinə daxil olmuş, buranı fərqlənmə diplomu ilə bitirərək təyinatla 1983-1988-ci illərdə Bakı şəhərindəki Toxuculuq və Yüngül Sənaye işçilərinin

Həmkarlar İttifaqı Respublika Komitəsi Kitabxanasının müdiri, 1989-1991-ci illərdə respublikada ictimai-siyasi yönümlü əsas kitabxana, ölkənin partiya kitabxanalarının metodiki mərkəzi olan Azərbaycan KP MK Siyasi Maarif Evi Kitabxanasının müdiri vəzifələrində çalışmışdır. 1992-2001-ci illərdə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi təsərrüfat şöbəsinin nəzdindəki kitabxananın müdiri, 2001-2003-cü illərdə İşlər İdarəsinin böyük məsləhətçisi vəzifələrində işləyən M. Əhmədov hazırda Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsinin şöbə müdiri - Prezident Kitabxanasının direktoru vəzifəsində çalışır. Dövlət qulluğunun baş müşaviridir.

Mayıl Əhmədov kitabxana-informasiya və biblioqrafiya xidmətinə dair dünyada mövcud olan yeni, səmərəli metod və texnologiyaların öyrənilməsinə və bu yeniliklərin Prezident Kitabxanasında tətbiqinə, istifadəsinə xüsusi diqqət yetirir. O, nəinki respublika, həm də MDB kitabxana ictimaiyyəti tərəfindən novator rəhbər, öz işinin bütün incəliklərini, yeni tendensiya və texnologiyaları yaxşı bilən yüksək peşə səviyyəli mütəxəssis kimi tanınır. Onun rəhbərliyi altında Prezident Kitabxanasında 2004-cü ildə kitabxana proseslərinin kompleks avtomatlaşdırılması üzrə sistemin bütün modulları tətbiq edilmiş və elektron kataloqun internet üzərindən əlyetərliyi təmin edilmiş, daha sonra dövri nəşrlərdə dərc edilən materialların elektron kartotekası yaradılaraq həm lokal şəbəkədən, həm də internet üzərindən istifadəyə verilmiş, fondda olan ən əhəmiyyətli nəşrlərin elektron versiyalarından ibarət zəngin on-layn kitabxana yaradılmış, ictimai maraq kəsb edən ayrı-ayrı mövzu və problemlər üzrə kitabları, məqalələri, foto və video sənədləri, biblioqrafik materialları bir elektron məkanda əks etdirən və internet üzərindən hamıya əlyetər olan tematik elektron topluların, tematik internet saytların tərtibinə başlanmış, fondda mövcud bütün monoqrafik nəşrlərin elektron kataloqa daxil edilməsi işi başa çatdırılmışdır. Kitabxananın fəaliyyətinin zamanın tələbləri səviyyəsində qurulması, yeni təcrübənin öyrənilərək tətbiqi üçün o, MDB və uzaq xarici ölkələrdəki aparıcı kitabxanalarla, bu sahədə tanınmış beynəlxalq təşkilatlarla işgüzar əlaqələr qurulmasına çalışır, kitabxana işi sahəsində beynəlxalq tədbirlərdə fəal iştirak edir. O, İFLA-nın Böyük Britaniyada (Qlazqo), İtaliyada (Milan), İsveçdə (Qeteborq) və Finlandiyada (Helsinki), Polşada (Vrotslav), Yunanıstanda (Afina) keçirilmiş illik Şura və Konfranslarında, 2011-ci ildə İsveçrədə keçirilmiş Azərbaycan və İsveçrə kitabxanaçılarının birgə konfransında iştirak etmiş, 2012-ci ildə Ankarada Avrasiya Kitabxanaçılar Birliyinin təsis Konfransında Azərbaycan kitabxanalarının inkişaf perspektivlərinə həsr edilmiş məruzə ilə çıxış etmişdir. Məhz onun təklifi ilə İFLA-nın praktikasında ilk dəfə olaraq Azərbaycanın təmsilçisi, Prezident Kitabxanasının əməkdaşı bu təşkilatın hökumət kitabxanaları üzrə daimi komitəsinin fəaliyyətində bir seçki müddətində üzv olaraq iştirak etmişdir.

Mayıl Əhmədovun təşəbbüsü və təşkilatçılığı ilə ilk dəfə olaraq dövlət





idarəetmə orqanlarının kitabxana-biblioqrafik və sənəd-informasiya təminatı məsələlərinin müzakirəsinə həsr olunmuş ixtisaslaşdırılmış beynəlxalq konfrans-DİOSİT keçirilməyə başlamışdır ki, bu maraqlı tədbir Prezident Kitabxanasında indiyə qədər iki dəfə (2008 və 2013-cü illərdə) keçirilmiş və MDB, Şərqi Avropa kitabxana ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir.

Mayıl Əhmədov Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Ekspert Komissiyasının və Milli Kitabxananın Məsləhət Şurasının üzvüdür. O, görkəmli dövlət və ictimai xadimlərin fəaliyyətinə dair bir neçə kitabın həmtərtibçisi və məsul redaktoru, kitabxana fəaliyyətinə dair bir sıra metodiki və soraq nəşrlərinin elmi məsləhətçisi və redaktoru, dövri mətbuatda, konfrans toplularında dərc edilmiş bir sıra məqalələrin müəllifidir. 2011-ci ildə dövlət qulluğu sahəsində uzun müddət səmərəli fəaliyyətinə və kitabxana işinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür. 2019-cu ilin oktyabr ayının 16-da isə Prezident İlham Əliyevin sərəncamı ilə Mayıl Əhmədov Azərbaycanda kitabxana işi sahəsində səmərəli fəaliyyətinə görə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.

Hörmətli Mayıl Əhmədovu bu yubiley münasibəti ilə ürəkdən təbrik edir, ona yeni-yeni uğurlar və can sağlığı arzulayırıq.

**ƏLİYUSİF MƏMMƏDOV**
**BDU, Kitabxanaçılıq-informasiya fakültəsinin**
**Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi**